Azərbaycan Milli Kitabxanası

Milli Kütüphane Başkanlığı

# Türkiyə Cümhuriyyətinin Milli Kitabxanası
# və
# M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
# Arasında
# Əməkdaşlıq Haqqında Memorandum

Türkiyə Cümhuriyyətinin Milli Kitabxanası və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası (bundan sonra "Tərəflər" adlandırılacaq),

Kitabxanalar arasında əməkdaşlığın inkişaf etdirilməsi və elm, mədəniyyət və məlumat mənbələrinin yayılması və mübadiləsi sahəsində əməkdaşlıq üçün şəraitin yaradılmasını arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, elmi biblioqrafiya, nadir kitabların bərpa və konservasiyası, kadrların hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

## Maddə 2

Tərəflər kitabxana elmi və kitabxana-informasiya sahəsində inkişaf perspektivləri və nailiyyətləri barədə təcrübə və bilik mübadiləsi məqsədi ilə aşağıdakı sahələr üzrə əməkdaşlığı möhkəmləndirəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kitabxanalar və elektron kataloqdan qarşılıqlı istifadə;
- elektron məlumat mübadiləsi;
- kitab və kitab nəşri sahəsində elmi tədqiqatlar;
- nadir kitabların mühafizə, bərpa və konservasiyası texnologiyaları;
- kitabxana arxivlərinin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq kitab mübadiləsinin inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana işinin bütün sahələrində mütəxəssislər arasında təcrübə mübadiləsi, treninglərin, seminarlar və elmi konfransların təşkili.

Azərbaycan Milli Kitabxanası

Milli Kütüphane Başkanlığı

## Maddə 3

Tərəflər milli kitabxanalarının kolleksiyasında saxlanılan qədim əlyazmalarının öyrənilməsi və araşdırılması sahəsində qarşılıqlı əməkdaşlığı genişləndirəcəklər.

## Maddə 4

Tərəflər bir-birinin kitabxanaçılarını maksimum 15 günlük müddət olmaq şərtilə qəbul etməyə razılaşırlar.

Yerləşdirmə xərcləri (mehmanxana və gündəlik xərclər) qəbul edən ölkə tərəfindən, səfər (yol) xərcləri isə göndərən ölkə tərəfindən ödənilir. Səfər edəcək kitabxanaçıların sayı hər il qarşılıqlı razılaşma ilə müəyyən edilir.

## Maddə 5

Zəruri halda, Tərəflər, qarşılıqlı yazılı razılıq əsasında və əvvəlcədən bildiriş verməklə, bu Memoranduma əlavə və dəyişikliklər edə bilərlər.

## Maddə 6

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir.

Bu Memorandum 5 il müddətinə qüvvədə qalacaq və Tərəflərdən biri bu Memorandumun müddətinin bitməsinə 6 ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 il müddətinə uzadılacaqdır.

Bu Memorandum Bakı şəhərində " 27 " sentyabr 2012-ci il tarixində Türk və Azərbaycan dillərində imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

| Türkiyə Cümhuriyyətinin Milli Kitabxanasının Direktoru | M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Direktoru |
|---|---|
| Tuncel Acar | Dok. Kərim Tahirov |